AQRAR TƏDQİQATLAR MƏRKƏZİ

Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi

# Kənd Təsərrüfatı və Ərzaq Məhsulları üzrə Dünya Bazarı Konyukturasına dair Qısa İcmal

Noyabr 2022

# M ü n d ə r i c a t


**FAO-nun qlobal ərzaq qiymətləri indeksinə dair hesabatı** ..... 2
**Buğda üzrə dünya bazarı konyukturasına dair qısa icmal** ..... 3
**Buğdanın Rusiya Federasiyasında qiyməti** ..... 6
**Arpanın dünya bazarı qiymətinə dair qısa icmal** ..... 7
**Düyünün dünya bazarı qiymətinə dair qısa icmal** ..... 8
**Qarğıdalının dünya bazarı qiymətinə dair qısa icmal** ..... 9
**Pambıq üzrə dünya bazarı konyukturasına dair qısa icmal** ..... 10
**Xam ipəyin dünya bazarı qiymətinə dair qısa icmal** ..... 12
**Quru baramanın dünya bazarı qiymətinə dair qısa icmal** ..... 13
**Günəbaxan yağının Avropa bazarı qiymətinə dair qısa icmal** ..... 14
**Zeytun yağının dünya bazarı qiymətinə dair qısa icmal** ..... 15
**Çayın dünya bazarı qiymətinə dair qısa icmal** ..... 16
**Şəkərin dünya bazarı qiymətinə dair qısa icmal** ..... 17
**Soyanın dünya bazarı qiymətinə dair qısa icmal** ..... 18
**Mal ətinin dünya bazarı qiymətinə dair qısa icmal** ..... 19
**Qoyun ətinin Avropa bazarı qiymətinə dair qısa icmal** ..... 20
**Donuz ətinin Avropa bazarı qiymətinə dair qısa icmal** ..... 21
**Quş ətinin dünya bazarı qiymətinə dair qısa icmal** ..... 22
**Südün dünya bazarı qiymətinə dair qısa icmal** ..... 23
**Gübrənin dünya bazarı qiymətinə dair qısa icmal** ..... 25

# FAO-nun qlobal ərzaq qiymətləri indeksinə dair hesabatı

**(FAO-nun 8 dekabr 2022-ci il tarixli açıqlaması)**

***FAO-nun Ərzaq Qiymətləri İndeksində 2022-ci ilin noyabr ayında əvvəlki aya nisbətən cüzi azalma olmuşdur.***

- **Qlobal Ərzaq Qiyməti İndeksi** 2022-ci ilin noyabr ayında orta hesabla 135.7 bənd təşkil edib ki, bu da əvvəlki ayla müqayisədə 0.15% (0.2 bənd) az, ötən ilin noyabr ayı ilə müqayisədə isə 0.3% (0.4 bənd) **çoxdur**.
- **Ət Məhsullarının Qiymət İndeksi** noyabr ayında orta hesabla 117.1 bənd təşkil edib ki, bu da əvvəlki ayla müqayisədə 0.9% (1.1 bənd) az, ötən ilin noyabr ayı ilə müqayisədə isə 4.1% (4.6 bənd) **çoxdur.**
- **Süd Məhsullarının Qiymət İndeksi** noyabr ayında orta hesabla 137.5 bənd təşkil edib ki, bu da əvvəlki ayla müqayisədə 1.2% (1.7 bənd) az, ötən ilin noyabr ayı ilə müqayisədə isə 9.2% (11.6 bənd) **çoxdur**.
- **Taxıl Qiyməti İndeksi** noyabr ayında orta hesabla 150.4 bənd təşkil edib ki, bu da əvvəlki ayla müqayisədə 1.3% (1.9 bənd) az, ötən ilin noyabr ayı ilə müqayisədə isə 6.3% (9.0 bənd) **çoxdur**.
- **Bitki Yağlarının Qiymət İndeksi** noyabr ayında orta hesabla 154.7 bənd təşkil edib ki, bu da əvvəlki ayla müqayisədə 2.3% (3.4 bənd) çox, ötən ilin noyabr ayı ilə müqayisədə isə 16.2% (29.8.0 bənd) **azdır**.
- **Şəkər Məhsullarının Qiymət İndeksi** noyabr ayında orta hesabla 114.3 bənd təşkil edib ki, bu da əvvəlki ayla müqayisədə 5.2% (5.7 bənd) çox, ötən ilin noyabr ayı ilə müqayisədə isə 4.9% (5.9 bənd) **azdır.**







**Mənbə:** [http://www.fao.org/worldfoodsituation/foodpricesindex/en/](http://www.fao.org/worldfoodsituation/foodpricesindex/en/)

# Buğda üzrə dünya bazarı konyukturasına dair qısa icmal

***(ABŞ-ın Kənd Təsərrüfatı Nazirliyinin 9 dekabr 2022-ci il tarixli hesabatı əsasında hazırlanıb)***

- 2022/2023-cü məhsul ili üzrə qlobal buğda istehsalının 780.6 milyon ton olacağı proqnozlaşdırılır.

**Dünya üzrə buğda bazarının tələb-təklif balansı, milyon ton**

| | | 2020/2021 | 2021/2022 | 2022/2023 |
|---|---|---|---|---|
| **TƏKLİF** | İlin əvvəlinə qalıq | 298 | 290 | 276 |
| | İstehsal | 775 | 779 | 781 |
| | **Cəmi təklif** | 1073 | 1070 | 1057 |
| **TİCARƏT** | İdxal / İxrac | 203 | 203 | 211 |
| **TƏLƏB** | Ərzaq və toxum | 625 | 632 | 635 |
| | Yem | 158 | 161 | 155 |
| | Cəmi istifadə | 782 | 793 | 790 |
| **İLİN SONUNA QALIQ** | | 290 | 276 | 267 |
| ***DÜNYA ÜZRƏ EHTİYATLARIN İSTEHLAKA NİSBƏTİ*** | | **37%** | **35%** | **34%** |

**Mənbə:** https://www.uswheat.org/market-information/supply-and-demand/

- Bununla belə, məcmu təklifin həcm göstəricisinin 2021/2022-ci məhsul ili ilə müqayisədə 13 milyon ton azalaraq 1057 milyon ton olacağı proqnozlaşdırılır. Bunun başlıca səbəbi ötən mövsümə nəzərən cari mövsümdə ilin əvvəlinə olan qalıq həcminin 4.8% azalaraq 276 milyon tona düşməsidir.

- Qlobal buğda ehtiyatları həcminin 2021/2022-ci məhsul ili ilə də müqayisədə 2022/2023-cü məhsul ilində 3.3% azalacağı və 268 milyon tona düşəcəyi gözlənilir. Nəticədə dünya üzrə ehtiyatların istehlaka nisbəti göstəricisi 34% səviyyəsində olacaq.

- Ötən mövsümə nəzərən cari mövsümdə əsas buğda ixracatçısı olan ölkələrdə ilin əvvəlinə olan qalıq həcminin sabit olaraq 59 milyon ton, istehsal həcminin isə 2021/2022-ci məhsul ili ilə müqayisədə 4 milyon ton çox (388 milyon ton) olacağı gözlənilir. Bununla da əsas ixracatçı ölkələr üzrə ümumi təklif səviyyəsi 4 milyon ton çox (447 milyon ton) olacaq.

- Dünya buğda ticarətinin 2022/2023-cü məhsul ilində əvvəlki məhsul ili ilə müqayisədə 8 milyon ton artaraq 211 milyon ton olacağı proqnozlaşdırılır.
- Çində ilin əvvəlinə olan qalıq həcminin 2021/2022-ci məhsul ili ilə müqayisədə 2 milyon ton azalaraq 142 milyon ton olacağı gözlənilir.
- Qara dəniz regionu ölkələri qrupu üzrə əvvəlki məhsul ilinə nəzərən 2022/2023-cü məhsul ilində istehsal həcminin 4.3% artaraq 139.8 milyon ton, ixracın isə 6.8% artaraq 66.2 milyon ton olacağı proqnozlaşdırılır.

**Qara dəniz ölkələri qrupu üzrə icmal**




**Qara dəniz ölkələri qrupu üzrə ixrac**




**Mənbə:** www.uswheat.org

**Bu qrupda əsas istehsalçılar Rusiya, Ukrayna və Qazaxıstandır.**

➢ Dünya birjalarında 2022-ci ilin avqust ayından etibarən buğdanın qiymətində başlayan artım trendi noyabr ayında yenidən azalmışdır. Noyabr ayında buğdanın qiyməti əvvəlki aya nisbətən 4.5% azalaraq 336 ABŞ dolları/ton səviyyəsində qərarlaşmışdır.







Mənbə: https://fpma.fao.org/giews/fpmat4/#/dashboard/tool/international

# Rusiya buğdasının ixrac qiyməti

➢ **Rusiya buğdasının ixrac qiyməti oktyabr ayındakı cüzi artımdan sonra noyabr ayında yenidən azalmışdır. Noyabr ayında buğdanın qiyməti əvvəlki aya nisbətən 2.8% azalaraq 317 ABŞ dolları/ton təşkil etmişdir.**







**Mənbə:** https://fpma.fao.org/giews/fpmat4/#/dashboard/tool/international

## Arpanın dünya bazarı qiymətinə dair qısa icmal

➢ **2022-ci ilin noyabr ayında arpanın 1 tonunun qiyməti əvvəlki aya nisbətən Avropa bazarında 0.6% azalaraq 309 ABŞ dolları, Qara dəniz bazarında isə 0.7% azalaraq 283 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə:** *https://fpma.fao.org/giews/fpmat4/#/dashboard/home*

## Düyünün dünya bazarı qiymətinə dair qısa icmal

➢ **Noyabr ayında düyünün 1 tonunun dünya bazarı qiyməti əvvəlki aya nisbətən 1.4% artaraq 418 ABŞ dolları səviyyəsinə yüksəlmişdir.**







**Mənbə:** *https://www.worldbank.org/en/research/commodity-markets#1*

# Qarğıdalının dünya bazarı qiymətinə dair qısa icmal

➢ **Qarğıdalının dünya bazarı qiymətində 2022-ci ilin sentyabr ayından başlayan artım noyabr ayında yenidən azalmışdır. Bu ayda qarğıdalının qiyməti əvvəlki aya nisbətən 6.6% azalaraq 321 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə:** *https://www.worldbank.org/en/research/commodity-markets#1*

# Pambıq üzrə dünya bazarı konyukturasına dair qısa icmal

➢ **Dünya üzrə pambıq balansına əsasən, 2022/23-cü məhsul ilində pambıq istehsalının 2021/22-ci məhsul ili ilə müqayisədə dəyişməyərək 25.2 milyon ton olacağı proqnozlaşdırılır.**

**Cədvəl 1. Dünya üzrə pambıq balansı (*Çin də daxil olmaqla*), milyon ton**

| | 2018/2019 | 2019/2020 | 2020/2021 | 2021/2022 | 2022/2023 Noyabr | 2022/2023 Dekabr |
|---|---|---|---|---|---|---|
| **İlin əvvəlinə qalıq** | 18.0 | 18.0 | 21.4 | 18.9 | 18.6 | 18.6 |
| **İstehsal** | 25.8 | 26.2 | 24.3 | 25.2 | 25.3 | 25.2 |
| **Təklif** | 43.8 | 44.1 | 45.7 | 44.1 | 44.0 | 43.8 |
| **Fabrik istehlakı** | 26.1 | 22.7 | 26.8 | 25.6 | 25.0 | 24.3 |
| ***İlin sonuna qalıq*** | 18.0 | 21.4 | 18.9 | 18.6 | 19.0 | 19.5 |
| ***Qalıq/İstehlak nisbəti*** | *68.9%* | *94.5%* | *70.4%* | *72.8%* | *75.9%* | *80.2%* |

**Cədvəl 2. Çinin pambıq balansı, milyon ton**

| | 2019/20 | 2020/21 | 2021/22 | 2022/23 Dekabr |
|---|---|---|---|---|
| **İlin əvvəlinə qalıq** | 7.8 | 7.9 | 8.2 | 8.1 |
| **İstehsal** | 6.0 | 6.4 | 5.8 | 6.1 |
| **İdxal** | 1.6 | 2.8 | 1.7 | 1.7 |
| **Təklif** | 15.3 | 17.2 | 15.8 | 16.0 |
| **Fabrik istehlakı** | 7.4 | 8.9 | 7.6 | 7.7 |
| ***İlin sonuna qalıq*** | 7.9 | 8.2 | 8.1 | 8.2 |
| ***İstehlak*** | 7.4 | 8.9 | 7.6 | 7.8 |
| ***Qalıq/İstehlak nisbəti*** | *106.4%* | *92.2%* | *106.2%* | *105.8%* |

**Cədvəl 3. Çin istisna olmaqla dünya pambıq balansı, milyon ton**

| | 2019/20 | 2020/21 | 2021/22 | 2022/23 Dekabr |
|---|---|---|---|---|
| **İlin əvvəlinə qalıq** | 10.2 | 13.5 | 10.7 | 10.5 |
| **İstehsal** | 20.2 | 17.8 | 19.4 | 19.1 |
| **Təklif** | 30.4 | 31.3 | 30.0 | 29.6 |
| **Fabrik istehlakı** | 15.3 | 17.9 | 17.9 | 16.6 |
| **Çinə ixrac** | 1.6 | 2.8 | 1.7 | 1.7 |
| ***İstehlak*** | 16.8 | 20.7 | 19.6 | 18.3 |
| ***İlin sonuna qalıq*** | 13.5 | 10.7 | 10.5 | 11.3 |
| ***Qalıq/İstehlak nisbəti*** | *80.4%* | *51.5%* | *53.3%* | *61.6%* |

**Mənbə**: [https://www.cottoninc.com/market-data/monthly-economic-newsletter/](https://www.cottoninc.com/market-data/monthly-economic-newsletter/)

➢ **Pambığın dünya bazar qiymətində 2022-ci ilin iyun ayından başlayan azalma tendensiyası noyabr ayında cüzi artmla əvəz olunmuşdur. Noyabr ayında pambığın 1 kiloqramının qiyməti əvvəlki aya nisbətən 1.4% artaraq 2.23 ABŞ dolları səviyyəsinə yüksəlmişdir.**







**Mənbə**: *https://www.worldbank.org/en/research/commodity-markets#1*

# Xam ipəyin dünya bazarı qiymətinə dair qısa icmal

➢ **2022-ci ilin noyabr ayında dünya bazarında xam ipəyin qiyməti əvvəlki aya nisbətən 1.7% azalaraq 59.8 min ABŞ dolları/ton səviyyəsində qərarlaşmışdır.**







**Mənbə:** [http://www.sunsirs.com/uk/sdetail-month--.html](http://www.sunsirs.com/uk/sdetail-month--.html)

## Quru baramanın dünya bazarı qiymətinə dair qısa icmal

➢ **2022-ci ilin oktyabr ayında dünya bazarında quru baramanın qiyməti əvvəlki aya nisbətən 0.5% azalaraq tona 20.2 min ABŞ dolları olmuşdur.**







**Mənbə:** http://www.sunsirs.com/uk/sdetail-month--.html

## Günəbaxan yağının Avropa bazarı qiymətinə dair qısa icmal

➢ **2022-ci ilin mart ayında kəskin artan günəbaxan yağının qiyməti növbəti aylarda ardıcıl olaraq azalsa da, oktyabr ayında yenidən artmışdır. Əvvəlki aya nisbətən 3.6% artan qiymət 1353 ABŞ dollarına qalxmışdır.**







**Mənbə:** *[https://www.fas.usda.gov/data/oilseeds-world-markets-and-trade](https://www.fas.usda.gov/data/oilseeds-world-markets-and-trade)*

# Zeytun yağının dünya bazarı qiymətinə dair qısa icmal

➢ **2022-ci ilin oktyabr ayında zeytun yağının 1 tonunun qiyməti əvvəlki aya nisbətən İtaliya bazarında 4.8%, İspaniya bazarında 10.6%, Yunanıstan bazarında isə 10.1% artmaqla müvafiq olaraq 5175, 4319 və 3638 ABŞ dolları təşkil etmişdir.**







**Mənbə**: *https://www.internationaloliveoil.org/what-we-do/economic-affairs-promotion-unit/#prices*

## Çayın dünya bazarı qiymətinə dair qısa icmal

➢ **2022-ci ilin sentyabr ayında çayın qiymətində müşahidə edilən azalma noyabr ayında da davam etmişdir. Noyabr ayında çayın 1 kiloqramının dünya bazarı qiyməti əvvəlki aya nisbətən 2.5% azalaraq 3.1 ABŞ dolları səviyyəsinə düşmüşdür.**







**Mənbə:** *https://www.worldbank.org/en/research/commodity-markets#1*

# Şəkərin dünya bazarı qiymətinə dair qısa icmal

- **Şəkərin dünya bazarı qiyməti 2022-ci ilin noyabr ayında son üç aylıq sabit qiymətdən sonra 5.1% artaraq 0.41 ABŞ dolları/kq səviyyəsinə yüksəlmişdir.**







**Mənbə:** https://www.worldbank.org/en/research/commodity-markets#1

# Soyanın dünya bazarı qiymətinə dair qısa icmal

➢ **Soya qiymətlərində 2022-ci ilin ortalarından başlayan azalma noyabr ayında artım ilə əvəz olunmuşdur. Qiymət əvvəlki aya nisbətən 3.7% artaraq 649 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə:** *https://www.worldbank.org/en/research/commodity-markets#1*

## Mal ətinin dünya bazarı qiymətinə dair qısa icmal

➢ **Son 7 ayda mal ətinin qiymətində müşahidə olunan azalma trendi noyabr ayında da davam etmişdir. Noyabr ayında mal ətinin 1 kiloqramının dünya bazarı qiyməti əvvəlki aya nisbətən 4.8% azalaraq 5.20 ABŞ dolları səviyyəsinə düşmüşdür.**







**Mənbə:** https://www.worldbank.org/en/research/commodity-markets#1

## Qoyun ətinin Avropa bazarı qiymətinə dair qısa icmal

➢ Qoyun ətinin qiymətində əvvəlki 4 ayda müşahidə olunan azalma trendi noyabr ayında artım ilə əvəz olunmuşdur. Avropa bazarında bu ətin 1 kiloqramının qiyməti ötən aya nisbətən 7.5% artaraq 7.45 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.







**Mənbə:** https://agridata.ec.europa.eu/extensions/DataPortal/prices.html

## Donuz ətinin Avropa bazarı qiymətinə dair qısa icmal

➢ **2022-ci ilin noyabr ayında donuz ətinin 1 kiloqramının Avropa bazarı qiyməti əvvəlki aya nisbətən 1.9% artaraq 2 ABŞ dolları olmuşdur.**







**Mənbə:** *https://agridata.ec.europa.eu/extensions/DataPortal/prices.html*

# Quş ətinin dünya bazarı qiymətinə dair qısa icmal

- **2022-ci ilin noyabr ayında quş ətinin 1 kiloqramının dünya bazarı qiyməti əvvəlki aya nəzərən sabit qalıb, 3.31 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə**: [https://www.worldbank.org/en/research/commodity-markets#1](https://www.worldbank.org/en/research/commodity-markets#1)

# Südün dünya bazarı qiymətinə dair qısa icmal

➢ **2022-ci ilin oktyabr ayında əvvəlki ayla müqayisədə süd xammalının 1 tonunun fermadan satış qiyməti ABŞ-da 6%, Avropa İttifaqında 3% artmaqla müvafiq olaraq 571 və 556 ABŞ dolları, Yeni Zelandiyada isə 4% azalmaqla 400 ABŞ dolları olmuşdur.**







**Mənbə**: [https://www.clal.it/en/index.php](https://www.clal.it/en/index.php)

➢ **Quru südün 1 tonunun qiyməti 2022-ci ilin noyabr ayında əvvəlki ayla müqayisədə ABŞ-da cüzi artaraq 5401 ABŞ dolları, Avropa İttifaqında isə 5.7% azalaraq 4527 ABŞ dolları olmuşdur.**







**Mənbə**: https://www.clal.it/en/index.php

## Gübrənin dünya bazarı qiymətinə dair qısa icmal

➢ **Noyabr ayında kalium gübrəsinin qiyməti əvvəlki aya nisbətən sabit qalmış, fosfor və azot gübrələrinin qiyməti isə müvafiq olaraq 7.4% və 7.5% azalmışdır.**







**Mənbə:** https://www.worldbank.org/en/research/commodity-markets

Əlaqə:
(+994 12) 599-08-88
www.atm.gov.az
info@atm.gov.az
Nizami küçəsi, 92
AZ 1010 Bakı, Azərbaycan

AQRAR TƏDQİQATLAR MƏRKƏZİ